AZERBAIJAN CASPIAN SHIPPING CO. 1858
AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

DƏNİZ

15 mart 2016-cı il № 13-16 (9019) Qiyməti 50 qəpik

QƏZET 1931-ci ildən nəşr olunur

BU SAYIMIZDA

TÜRKMƏNBAŞIDA BEŞTƏRƏFLİ GÖRÜŞ KEÇİRİLDİ

Fevralın 29-da Türkmənbaşıda Azərbaycan, Qazaxıstan, Gürcüstan, İran və Türkmənistanın dəmir yolu, gəmiçilik və liman qurumları rəhbərlərinin beştərəfli görüşü keçirilib.

Görüşdə respublikamızı nəqliyyat nazirinin müavini Musa Pənahov, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev, Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini Ehtiram Rəhimov, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov təmsil ediblər.

Səh. 2

TRANZİT YÜKDAŞIMALAR ÜZRƏ KOORDİNASİYA ŞURASININ ELEKTRON PORTALI YARADILIB

"Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli Fərmanına uyğun olaraq, ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yükdaşımalarla bağlı müvafiq məlumatları, prosedurları və s. məsələləri özündə əks etdirən Koordinasiya Şurasının elektron portalı (www.transit.az) yaradılıb. Martın 9-da aidiyyəti dövlət qurumlarının və tranzit yükdaşımalarını həyata keçirən şirkətlərin nümayəndələrinin iştirakı ilə portalın təqdimatı olub.

Səh. 3

"AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİNDƏ QEYRİ-QANUNİ İQTİSADİ VƏ DİGƏR FƏALİYYƏTLƏR"

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi martın 2-də "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər" adlı hesabatı təqdim edib.

Səh. 4

Banklarda əmanətiniz varsa…

Əmanətlərin Sığortalanması Fondundan bildiriblər ki, "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, qorunan əmanətçilər kateqoriyasına aid olan fiziki şəxslər xarici valyutada olan əmanətlərinin tam sığortalanamasını istədikdə, əmanət müqavilələrinə Fondun Himayəçilik Şurasının 2016-cı il 1 mart tarixli qərarına əsasən, müəyyən olunmuş xarici valyutada illik faiz dərəcəsi 3 olmaqla müvafiq dəyişikliklər edilməsi üçün əmanət müqavilələri bağlanmış banklara müraciət etməlidirlər.

Səh. 6

"FORMULA-1" YARIŞLARININ TƏŞKİLATÇISI BAKIDA KEÇİRİLƏCƏK AVROPA QRAN-PRİSİNƏ BİLETLƏRİN SATILDIĞI İLK MƏNTƏQƏNİN AÇILIŞINI EDİB

"Formula-1" yarışlarının təşkilatçısı "Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti (BŞH) "Park Bulvar" ticarət mərkəzində bu ilin yayında Bakıda keçiriləcək Avropa Qran-prisinə biletlərin satıldığı ilk məntəqənin açılışını edib.

Səh. 8

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1283-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar qərara alıram:

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 26) 2.1.5-ci yarımbəndində "bağlanmasına razılıq verilməsi" sözləri", eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin beş faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi" sözləri ilə əvəz olunsun.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 fevral 2016-cı il.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəqabət qabiliyyətinin artırılmasını, dəniz nəqliyyatı sisteminin təkmilləşdirilməsini, Cəmiyyətə məxsus gəmilərin beynəlxalq sularda fəaliyyətinin genişləndirilməsini, habelə beynəlxalq şirkətlərin müasir idarəetmə təcrübəsindən istifadə etməklə, su nəqliyyatının inkişafının sürətləndirilməsini və rəqabətədavamlı dəniz nəqliyyatı xidmətləri göstərilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 26) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1.3-cü yarımbənd və 2.2-ci bənd ləğv edilsin;

1.2. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Müəyyən edilsin ki:

3.1. Cəmiyyətin sədrinin və onun müavinlərinin (İdarə Heyəti) vəzifəyə təyin və vəzifədən azad edilməsi, Cəmiyyətin yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir;

3.2. Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin yaradılması və ləğvi, törəmə hüquqi şəxslərin yaradılması, yenidən təşkili və ləğvi Cəmiyyət tərəfindən həyata keçirilir və bu barədə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə məlumat verilir;

3.3. Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin, habelə törəmə hüquqi şəxslərin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi Cəmiyyət tərəfindən həyata keçirilir;".

2. Müəyyən edilsin ki:

2.1. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra – Cəmiyyət), onun idarə, filial və nümayəndəliklərinin, habelə törəmə hüquqi şəxslərinin Cəmiyyətin Nizamnaməsi ilə müəyyən olunmuş fəaliyyət istiqamətləri üçün xüsusi razılıq (lisenziya), icazə, sertifikat alınması tələb olunduqda, həmin xüsusi razılıq (lisenziya), icazə, sertifikat alınmış hesab edilir və yenidən alınması tələb olunmur;

2.2. Cəmiyyətin, onun idarə, filial və nümayəndəliklərinin, habelə törəmə hüquqi şəxslərin balansında olan əmlaka münasibətdə sərəncam vermək hüququ, o cümlədən həmin əmlakın balansdan balansa, icarəyə və istifadəyə verilməsi, Cəmiyyətin iştirak etdiyi birgə layihələrə pay şəklində qoyulması, qiymətləndirilməsi, təyinatının dəyişdirilməsi səlahiyyətləri Cəmiyyət tərəfindən həyata keçirilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "2016-2020-ci illərdə Azərbaycan Respublikasında gəmiçiliyin inkişafına dair Dövlət Proqramı"nın layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması, onun maliyyə-təsərrüfat fəaliyyətinin sağlamlaşdırılması ilə bağlı zəruri tədbirlər görsün və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin əsas fəaliyyət istiqamətlərinə aid olmayan, eyni zamanda, saxlanılması üçün xeyli vəsait tələb edən (qeyri-profilli) aktivlərin realizə edilməsindən əldə olunan vəsaitin su nəqliyyatı infrastrukturunun təkmilləşdirilməsinə yönəldilməsini təmin etmək məqsədi ilə tədbirlər görsün;

3.4. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.6. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.7. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 mart 2016-cı il.

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

№ 57 **QƏRAR** Bakı şəhəri, 16 fevral 2016-cı il

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında

"Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1283-IVQD nömrəli Qanununun tətbiqi barədə" "Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 1239 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 67, № 10, maddə 1321) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 6.5.4-cü yarımbənddə "bağlanılmasına razılıq verilməsi üçün" sözləri "və aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin (müstəqil auditorun rəyi əlavə olunmaqla) bağlanılması haqqında qərarın qəbul edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 6.5.4-1-ci yarımbənd əlavə edilsin:

"6.5.4-1. aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul edir;".

3. 7.1.13-cü yarımbəndə "müqavilələr" sözündən əvvəl "bu Nizamnamənin 6.5.4-cü və 6.5.4-1-ci yarımbəndlərinin tələbləri nəzərə alınmaqla" sözləri əlavə edilsin.

4. 8-ci hissə üzrə:

4.1. adı aşağıdakı redaksiyada verilsin:

"Cəmiyyətdə uçot, hesabat və nəzarət";

4.2. aşağıdakı məzmunda 8.5-1-ci bənd əlavə edilsin:

"8.5-1. İdarə Heyətinin sədri və ya üzvləri, habelə Cəmiyyətin struktur bölmələrinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərləri özlərinin, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s) barədə məlumatı Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.6-cı və 49-1.7-ci maddələri ilə müəyyən edilmiş qaydada təqdim etməlidirlər.".

5. 12.1-ci bənddən sonra aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Bu Nizamnamədə dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər."

Artur RASİ-ZADƏ,
Azərbaycan Respublikasının Baş Naziri

TÜRKMƏNBAŞIDA BEŞTƏRƏFLİ GÖRÜŞ KEÇİRİLDİ



Fevralın 29-da Türkmənbaşıda Azərbaycan, Qazaxıstan, Gürcüstan, İran və Türkmənistanın dəmir yolu, gəmiçilik və liman qurumları rəhbərlərinin beştərəfli görüşü keçirilib.

Görüşdə respublikamızı nəqliyyat nazirinin müavini Musa Pənahov, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev, Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini Ehtiram Rəhimov, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov təmsil ediblər.

Müzakirələr əsasən 3 məsələ ətrafında aparılıb:

Şərq-Qərb multimodal nəqliyyat dəhlizinin inkişafı: regionda mövcud nəqliyyat infrastrukturunun imkanları ilə tanışlıq, potensial və perspektivlərin qiymətləndirilməsi;

Yük bazarlarının marketinqi və öyrənilməsi, tranzit yüklərin cəlb olunması üzrə birgə fəaliyyət;

Tranzit yük axınlarının artırılması üçün birgə tədbirlərin işlənməsi: vahid tarif və sənədləşmənin tətbiqi, gömrük-nəqliyyat prosedurlarının optimallaşdırılması.

Görüşün yekununda müvafiq protokol imzalanıb. Bu protokola əsasən, tərəflər nəqliyyat sahəsində iqtisadi və elmi-texniki əməkdaşlığın inkişafı və möhkəmləndirilməsi, yerli və tranzit yükdaşımaların effektivliyinin artırılması, müxtəlif nəqliyyat növlərinin optimal iş birliyi, yaranan problemlərin birbaşa məsləhətləşmələr yolu ilə həlli barədə razılığa gəliblər.

Bununla yanaşı, hər bir tərəf digərinin dəmir yolu və dəniz nəqliyyatı üçün ölkələrarası və tranzit daşımalarda qarşılıqlı formada əlverişli şərait yaradılmasını təmin edəcək.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi ilə 52,2 milyon ton yük daşınmışdır

2015-ci ildə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində yük daşıması 52,2 milyon ton, yük dövriyyəsi isə 10956,1 milyon ton-km olmuşdur.

DSK-nın məlumatına görə, yüklərin 30,65 milyon tonu və ya 58,7 faizi avtomobil nəqliyyatı, 15,52 milyon tonu və ya 29,7 faizi dəmir yolu nəqliyyatı, 6,06 milyon tonu və ya 11,6 faizi dəniz nəqliyyatı ilə daşınmışdır. Qeyd olunan dövrdə avtomobil nəqliyyatı ilə daşınmış yüklərin həcmi 5,7 faiz artmışdır. Dəhliz vasitəsilə daşınmış yüklərin 18,2 faizini və ya 9,49 milyon tonunu tranzit yüklər təşkil etmişdir.

İl ərzində dəhliz vasitəsilə 331,1 milyon sərnişin daşınmış, sərnişin dövriyyəsi 6628,5 milyon sərnişin-km olmuşdur. Əvvəlki illə müqayisədə sərnişin daşınması 7,8 faiz, sərnişin dövriyyəsi isə 7,5 faiz artmışdır.

Nəqliyyatçılar nə qədər qazanırlar

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2015-ci ildə nəqliyyat müəssisələrində 73 min muzdlu işçi çalışıb. Onların 72,8 faizi dövlət, 27,2 faizi qeyri-dövlət müəssisələrində işləyir.

İşçilərin 54,2 faizi yerüstü və boru kəməri, 9,2 faizi su, 16,9 faizi hava nəqliyyatı, 19,7 faizi isə köməkçi və əlavə nəqliyyat fəaliyyəti göstərən müəssisələrdə çalışıb.

2014-cü illə müqayisədə nəqliyyatçıların orta aylıq əməkhaqqı 6,1 faiz artaraq 571,4 manat təşkil edib. Bu göstərici dəniz nəqliyyatında 1032,7, hava nəqliyyatında 819, boru kəməri nəqliyyatında 727,2, metro nəqliyyatında 601,8, avtomobil nəqliyyatında 512,1, dəmir yolunda 258 manat olub. Nəqliyyatın əksər sahələrində əməkhaqqı keçən il ondan əvvəlki ilə nisbətən artıb. Əməkhaqqı dəniz nəqliyyatında 33,9 faiz, hava nəqliyyatında 3,8 faiz, boru kəməri nəqliyyatında 3,1 faiz, avtomobil nəqliyyatında 1,7 faiz, dəmir yolu nəqliyyatında 0,4 faiz artıb, metro nəqliyyatında isə 1,9 faiz azalıb.

NOVRUZ BAYRAMI ƏRƏFƏSİNDƏ KEÇİRİLƏN İMƏCİLİKDƏ HAMI HƏVƏSLƏ İŞTİRAK EDİB

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin kollektivi baharı həm də təbiətə qayğıdan qaynaqlanan tədbirlərlə qarşılayır.

Martın 12-də Gəmiçiliyin idarə, müəssisə və təşkilatlarında Novruz bayramı münasibəti ilə keçirilən iməciliyə yüzlərlə könüllü çıxmışdı. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev başda olmaqla bütün rəhbər işçilər, gəmi təmiri zavodlarının və digər idarələrin kollektivləri, Azərbaycan Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin nümayəndələri aksiyada yaxından iştirak ediblər.

İməcilikdə təmizlik və abadlıq işləri görülüb, ağac və bəzək kolları əkilib, əvvəlki illərdə salınan yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

Ətraf mühitin sağlamlaşdırılması, ekoloji vəziyyətin yaxşılaşdırılması və yaşıllığın artırılmasına xidmət edən belə aksiyaların davam etdirilməsi nəzərdə tutulub.

"Nefteqaz-58" gəmisi əsaslı təmirdən çıxdı

Martın 3-də "Nefteqaz-58" təchizat-yedək gəmisinin "Bibiheybət" gəmi təmiri zavodunda əsaslı təmiri yekunlaşıb. Gəminin yanalma və gediş sınaqları uğurla keçib.

"Nefteqaz-58" istismara tam hazır vəziyyətdədir və Gəmiçiliyin digər təchizat gəmiləri kimi dənizdəki neftqaz layihələrinin təminatında yaxından iştirak edəcək.

Qeyd edək ki, gəmidə xeyli iş görülüb. O, doka qaldırıldıqdan sonra bütün gövdəsi təmizlənərək rənglənib, baş və köməkçi mühərriklərində, əsas və yardımçı sükan qurğularında, boru sistemlərində lazımi yoxlama və təmir işləri görülüb. Gəminin elektrik avadanlıqları və avtomatikası tənzimlənib, xidməti və yaşayış otaqlarında heyətin çalışması və dincəlməsi üçün hər cür şərait yaradılıb.

TRANSXƏZƏR NƏQLİYYAT DƏHLİZİNƏ YAXIN 10 İLDƏ ALTERNATİV GÖZLƏNİLMİR

Bu fikir Xəzər Strateji İnstitutunun keçirdiyi mətbuat konfransında səslənib.

Tədbirdə bildirilib ki, Transxəzər nəqliyyat dəhlizinə yaxın on ildə alternativ gözlənilmir. Aparılan illik araşdırmalara görə, bu dəhliz təkcə region üçün deyil, bütövlükdə Avropa və Asiya qitələri üçün arterial nəqliyyat damarıdır. Ona görə də Transxəzər nəqlıyyat dəhlizinə maraq ilbəil artır. Bu təklifləri qarşılamaq üçün Azərbaycan hökuməti davamlı tədbirlər həyata keçirir. Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Ceyhan layihələrinin icrası da bu zərurətdən irəli gəlib. Hazırda Ələt qəsəbəsində beynəlxalq standartlara cavab verən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi davam etdirilir.

Xəzər Strateji İnstitutunun strategiya və siyasət məsələləri üzrə koordinatoru Ruçan Kaya bildirib ki, Türkiyə, Gürcüstan, Azərbaycan, Qazaxıstan, Türkmənistan və Özbəkistanın qarşılıqlı ticarəti bu ölkələrin ümumi ticarət dövriyyəsinin 5 faizini təşkil edir. Türkiyə Azərbaycana ildə 2,9 milyard dollar həcmində məhsul ixrac edir. Azərbaycandan Türkiyəyə idxal isə o qədər yüksək deyil. Türkiyənin bu ölkələr arasında ən çox mal idxal etdiyi ölkə Qazaxıstandır. Hazırda Türkiyənin Çinlə ticarət dövriyyəsi ildə 24 milyard dollar təşkil edir və 2020-ci ildə bu göstəricinin 100 milyard dollara çatması gözlənilir. Bu ticarətdə Transxəzər nəqliyyat dəhlizi ilə daşınma daha qısa müddətdə və ucuz həyata keçirilə bilər. Bu dəhliz tranzit yolu üzərindəki ölkələrin iqtisadiyyatının şaxələndirilməsində önəmli rol oynaya bilər.

R.Kayanın fikrincə, Azərbaycan Qazaxıstan və Türkmənistanla müqayisədə infrastruktur və liman layihələrini bitirən tək ölkədir. Onun sözlərinə görə, Qazaxıstan və Türkmənistan da infrastruktur layihələrini tamamladıqda həm Xəzərdən keçid asanlaşacaq, həm də Türkiyə və Avropanın Çinlə ticarətində Xəzər üzərindən tranzitin payı artacaq.

"Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli Fərmanına uyğun olaraq, ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yükdaşımalarla bağlı müvafiq məlumatları, prosedurları və s. məsələləri özündə əks etdirən Koordinasiya Şurasının elektron portalı (www.transit.az) yaradılıb. Martın 9-da aidiyyəti dövlət qurumlarının və tranzit yükdaşımalarını həyata keçirən şirkətlərin nümayəndələrinin iştirakı ilə portalın təqdimatı olub.

TRANZİT YÜKDAŞIMALAR ÜZRƏ KOORDİNASİYA ŞURASININ ELEKTRON PORTALI YARADILIB

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat nazirinin müavini Sahil Babayev son illər ölkəmizin tranzit potensialının artırılması istiqamətində irimiqyaslı layihələrin həyata keçirildiyini, Xəzər hövzəsində ən böyük liman olan yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının və Bakı Gəmiqayırma Zavodunun fəaliyyətə başladığını, Bakı-Böyük Kəsik dəmir yolunun yenidən qurulması və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası layihələrinin bu sahədə əhəmiyyətini diqqətə çatdırıb. Vurğulanıb ki, Azərbaycanın tranzit imkanlarından daha geniş və səmərəli istifadə edilməsi, tranzit yüklərin daşınması sahəsində vahid, çevik və şəffaf tarif siyasətinin həyata keçirilməsi, sərhədkeçmə prosedurların sadələşdirilməsi, bu sahədə fəaliyyət göstərən dövlət qurumları arasında əlaqələndirmə işlərinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 21 oktyabr 2015-ci il tarixli Fərmanı ilə Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılıb.

Ötən dövr ərzində Koordinasiya Şurası tərəfindən aidiyyəti dövlət qurumları, eləcə də bu sahədə fəaliyyət göstərən nəqliyyat-ekspedisiya şirkətləri və digər biznes strukturları ilə görüşlər keçirilib, nəqliyyat dəhlizlərinin mövcud vəziyyəti və problemləri öyrənilib. İndiyədək Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının 2 iclası keçirilib və müvafiq qərarlar qəbul edilib. Koordinasiya Şurasının 3 dekabr 2015-ci il tarixli iclasında neft və neft məhsullarının tranzit daşınması üzrə tariflərin yuxarı həddi təsdiq olunub. Bu, neft və neft məhsullarının daşınması sahəsində rəqabət mühitini təmin edir, Azərbaycandan daşınan yüklərin həcminin artmasına dəstəkdir.

Bundan başqa, Koordinasiya Şurası tərəfindən tranzit prosedurlarının sadələşdirilməsi və xidmət haqlarının aşağı salınması hesabına Azərbaycandan Qazaxıstanın Aktau və Türkmənistanın Türkmənbaşı limanlarına istiqamətlənmiş iritonnajlı yük avtonəqliyyat vasitələri üçün tranzit gediş-gəliş xərcləri təqribən 40 faiz aşağı salınıb. Nəticədə 2015-ci ilin yanvar-fevral ayları ərzində Bakı-Aktau-Bakı istiqaməti üzrə 217 yük avtomobili dəhlizdən istifadə etdiyi halda, 2016-cı ilin analoji dövründə avtomobillərin sayı 7,3 dəfə artaraq 1582 olub.

Aktau Limanına gedən tırların bərələrə yüklənməsində yaranan problemlərin aradan qaldırılması ilə bağlı Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası tərəfindən tədbirlər görülüb, yük maşınlarının dəniz vasitəsilə daha tez və təhlükəsiz daşınması üçün "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Bakı-Aktau istiqamətində gəmilərin mütəmadi səfər qrafikini təsdiq edib, yük maşınlarının sayının çoxluğu nəzərə alınaraq, istismardan kənar gözləmədə saxlanılan bir neçə bərə-gəmini yenidən istismara qaytarıb, bərə reyslərinin sayı artırılıb.

Koordinasiya Şurası ilə Gürcüstanın analoji qurumu arasında aparılmış danışıqlarda Azərbaycan və Gürcüstan arasında tranzit yükdaşımalar sahəsində səmərəliliyin artırılması məqsədilə neft və neft məhsullarının iki ölkə ərazisindən tranzit keçidi üçün dəmir yolu üzrə daşınma və neft terminalları üzrə aşırma tariflərin paritet əsasda tətbiqinə dair razılıq əldə olunub.

Bundan başqa, Koordinasiya Şurası tərəfindən "Tranzit yükdaşıma xidmətləri ilə bağlı tariflərin və həmin tariflər üzrə güzəştlərin müəyyən edilməsi üzrə Qaydalar"ın layihəsi hazırlanıb və hökumətə təqdim edilib. Daşımalar üzrə vahid prinsip və şərtləri müəyyənləşdirən bu qaydalar dəhliz boyu şəffaflığı və əlverişli daşıma imkanlarını təmin edəcəkdir.

Yeni yaradılmış elektron portalının təqdimatında Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının ofisinin rəhbəri Elçin Əhmədov portal barədə məlumat verib. Elektron portalın "Şura haqqında" bölməsində Şuranın yaradılması ilə bağlı müvafiq qanunvericilik aktları, Şuranın tərkibi, əsasnaməsi, eləcə də Şuranın məqsədləri barədə məlumatlar yerləşdirilib. "Sənədlər" bölməsinə daxil olmaqla Şuranın qərarları, Şura tərəfindən təsdiq edilmiş tariflər, həmçinin yükdaşımalarla məşğul olan təşkilatlar və onların göstərdiyi xidmətlərlə bağlı nümunəvi müqavilələrlə tanış olmaq mümkündür.

"İştirakçılar" bölməsinə keçid edən istifadəçilər tərəfdaş ölkələrin aidiyyəti qurumları və yükdaşımaların həyata keçirilməsinə dair digər məlumatları əldə edə bilərlər.

Portalda yerləşdirilmiş marşrut kalkulyatoru vasitəsilə istiqamətlər göstərilməklə tranzit yüklərin daşınma xərcləri haqqında məlumatın əldə olunması mümkündür. Bununla da, yükdaşıma şirkətləri tranzit yükdaşıma xərclərini əvvəlcədən müəyyən edə bilər.

İstifadəçilər portalın tariflər bölməsinə daxil olmaqla Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası tərəfindən təsdiq edilmiş tariflərlə tanış ola bilərlər.

Hazırda regiondakı tərəfdaş ölkələrin müvafiq qurumları ilə Koordinasiya Şurasının portalı arasında əlaqələndirmənin qurulması, yüklərin izlənməsi və daşıma prosesləri ilə əlaqədar digər məsələlər üzrə işlər davam etdirilir.

Elektron portal (www.transit.az) tranzit yükdaşımaları ilə məşğul olan təşkilatlara, hüquqi və fiziki şəxslərə bu sahədə işlərin daha opetariv qurulmasına, tranzit daşımaların effektivliyinin artırılmasına yeni imkanlar yaradır.

Tədbirin sonunda KİV nümayəndələrinin sualları cavablandırılıb.

KURIK LİMANINDA BİRİNCİ BURAXILIŞ KOMPLEKSİNİN TİKİNTİSİNİ 2016-CI İLİN SONUNDA BAŞA ÇATDIRMAQ PLANLAŞDIRILIR



"İpək Yolu iqtisadi kəməri" təşəbbüsü çərçivəsində tranzit potensialının genişləndirilməsi üçün Kurık qəsəbəsində bərə keçidi tikintisinin davamına və tranzit yüklərin Çindən İrana, Türkmənistana, Azərbaycana, Türkiyəyə və sonra Avropaya daşınmasının təmin etdirilməsinə doqquz milyard təngə yönəldiləcək.

Zakon.kz saytında dərc olunan xəbərə görə, bu barədə Qazaxıstanın milli iqtisadiyyat naziri Yerbolat Dosayev hökumətin iclasında məlumat verib.

Kurık limanı Aktaunun 10 kilometrliyində yerləşir. Liman əməliyyatlarını həyata keçirmək üçün buraya Borjaktı-Yersay dəmiryolu xətti çəkilib. Layihə gücü ildə 4 milyon ton yük olan bərə kompleksi xalq istehlakı mallarının, taxılın, neft məhsullarının, maye qazların, gübrələrin, kimyəvi preparatların və digər yüklərin boşaldılıb-yüklənməsi üçün nəzərdə tutulub. Kurık limanında birinci buraxılış kompleksinin tikintisini 2016-cı ilin sonunda başa çatdırmaq planlaşdırılır.

Daşınılan mal haqqında ilkin informasiyanın olduğu yüklər Aktauda ləngimədən sənədləşdiriləcək

AZƏRTAC "Atameken" saytına istinadla xəbər verir ki, bu məlumat Türkiyədən Qazaxıstana Bakı-Aktau limanı vasitəsilə yük daşımalarını həyata keçirən bütün daşıyıcılara müraciətdə yer alıb.

Aktau limanında nəqliyyat vasitələrinin və malların keçirilməsi prosedurlarını sürətləndirmək və sadələşdirmək üçün məsul dövlət orqanları tərəfindən Qazaxıstan Respublikasının "Atameken" Sahibkarlar Milli Palatası ilə birlikdə qarşılıqlı fəaliyyət qaydaları hazırlanıb. Yük daşımalarına nəzarət "bir pəncərə" prinsipi üzrə həyata keçiriləcək. Qaydalara əsasən bir maşının sənədlərinin yoxlanması iki dəqiqədən artıq olmamalıdır. Yükdaşıyıcı yoxlamanın sadələşmiş keçməsi üçün Aktau limanındakı gömrük məntəqəsinə aparılan yük haqqında əvvəlcədən informasiya təqdim etməlidir.

Məlumatda bildirilir ki, Türkiyədən Qazaxıstana bərə daşımalarının həcmi dekabr ayından bəri 10 dəfə artıb. Bununla əlaqədar aparılan yüklərin sənədləşdirilməsində və maşınların keçməsində çətinliklər yaranıb. Beynəlxalq Avtomobil Daşıyıcıları İttifaqının məlumatına görə, hazırda bu istiqamətdə bütün daşımaların 90 faizi Qara dəniz və Xəzər dənizi vasitəsilə alternativ marşrutdan istifadə edilməklə həyata keçirilir.

Sahibkarlar Palatasının məlumatında deyilir: "Məlumatların ötürülməsi üçün www.pi.customs.kz milli portalında qeydiyyatdan keçmək lazımdır. Bu, istənilən vaxt lazım olan məlumatların ötürülməsini təmin edəcək və Aktau limanında yükləri sənədləşdirməkdə ləngiməni aradan qaldırmağa imkan yaradacaq".

Qeyd edək ki, hazırda Bakı-Aktau-Bakı xəttində "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin bərələri və "Ro-Ro" gəmisi işləyir.

"AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİNDƏ QEYRİ-QANUNİ İQTİSADİ VƏ DİGƏR FƏALİYYƏTLƏR"

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi martın 2-də "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər" adlı hesabatı təqdim edib.



Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bununla bağlı martın 2-də keçirdiyi mətbuat konfransında bildirib ki, hesabatda əks olunmuş məlumat daha çox erməni açıq mənbələrindən toplanılaraq işğal olunmuş ərazilərdə beynəlxalq hüquqa tam məhəl qoyulmadan məskunlaşmanın həyata keçirilməsi, mülkiyyət, təbii və digər sərvətlərin vəhşicəsinə istismarı, talan edilməsi və qeyri-qanuni ticarəti daxil olmaqla, davamlı fəaliyyəti sübut edən kifayət qədər təsdiqedici dəlillər təmin edir. Dəlillər göstərir ki, Azərbaycan və Ermənistan arasında beynəlxalq sərhədin işğal olunmuş hissəsi boyunca təbii sərvətlərin qeyri-qanuni daşınması həyata keçirilir və Azərbaycanın zəbt edilmiş ərazilərində qanunsuz istehsal edilmiş məhsulların, eləcə də minerallar və digər sərvətlərin həmin ərazilərdən beynəlxalq bazarlara daşınması üçün Ermənistan nəqliyyat məntəqəsi rolunu oynayır.

Mətbuat katibi qeyd edib ki, işğal olunmuş Azərbaycan ərazilərindəki qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər haqqında Xarici İşlər Nazirliyi tərəfindən hazırlanan hesabat yeddi hissədən ibarətdir: 1. Giriş. Bu hissədə sözügedən məsələ barədə və hesabatın hazırlanmasında istifadə olunan metodologiya haqqında məlumat verilir. 2. İcmal. Bu hissədə hesabatın gəldiyi nəticələr təqdim olunur. 3. Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı və bu ərazilərin ilhaq edilməsi. Bu hissədə Ermənistanın işğal olunmuş ərazilərdə nəzarəti həyata keçirməsini təsdiq edən faktlar təqdim edilir. 4. Ermənistanın iqtisadi gəlirlər məqsədilə işğal olunmuş ərazilərdə qeyri-qanuni iqtisadi və digər fəaliyyətləri. Bu hissədə işğal edilmiş ərazilərdə aparılan qeyri-qanuni fəaliyyətlər, o cümlədən qanunsuz məskunlaşma, təbii sərvətlərin istismarı, infrastrukturun dəyişdirilməsi haqqında faktlar təqdim olunur. 5. Azərbaycan ərazilərinin işğalının davamı və bu ərazilərdə qeyri-qanuni fəaliyyətlərlə əlaqədar Ermənistanın öhdəliyi və məsuliyyəti. Beynəlxalq hüquq əsasında ərazilərin işğalı və qeyri-qanuni fəaliyyətlərlə əlaqədar Ermənistanın daşıdığı hüquqi məsuliyyət təhlil və izah edilir. 6. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən qeyri-qanuni işğalı və ilhaqı cəhdlərinin dərhal dayandırılması üzrə təxirəsalınmaz tədbirlər. Burada təxirəsalınmaz tədbirlərin siyahısı təqdim olunur.

Diqqətə çatdırılıb ki, hesabatın hazırlanmasında əsasən Ermənistan və erməni diaspor dairələrinin kütləvi informasiya vasitələrinin məlumatlarından istifadə edilib, 500-dən artıq müxtəlif məlumata müraciət olunub.

Münaqişənin ən tez bir zamanda siyasi həllinə yönəlmiş hazırkı səylərə baxmayaraq, Ermənistanın həyata keçirdiyi siyasət və təcrübə onun açıq-aşkar Azərbaycan ərazilərinin işğalının möhkəmləndirilməsi, hərbi qüvvələr tərəfindən zəbt olunmuş və kütləvi şəkildə etnik təmizləmə aparılmış həmin ərazilərin ilhaqının təmin edilməsi niyyətini sübut edir. Ermənistan tərəfinin bu hərəkətlərinə qarşı adekvat beynəlxalq reaksiyanın olmaması yalnız onun cəzasızlıq və özbaşınalıq hisslərinin artmasına yardım edir.

Bu baxımdan, Azərbaycan Respublikası beynəlxalq ictimaiyyəti Ermənistanı üzərinə götürdüyü beynəlxalq öhdəliklərə tam riayət etməyə, dərhal həm erməni vətəndaşlarının, həm də xarici vətəndaşların işğal olunmuş ərazilərə köçürülməsini dayandırmağa və ləğv etməyə, Azərbaycanın işğal olunmuş ərazilərində iqtisadi və ticarət fəaliyyətini dərhal dayandırmağa və gələcəkdə də belə fəaliyyətlərdən çəkinməyə, həmin ərazilərdəki arxeoloji, mədəni və dini abidələr də daxil olmaqla, mədəni irs nümunələri və müqəddəs yerlərin dağıdılması və talan edilməsini dayandırmağa məcbur etməyə çağırır.

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin bütün üzvlərini Azərbaycanın Dağlıq-Qarabağ regionu və işğal olunmuş digər ərazilərində hər hansı qeyri-qanuni fəaliyyətin həyata keçirilməsi və onda iştirak da daxil olmaqla, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əleyhinə öz ərazilərində hər hansı fiziki və hüquqi şəxslər tərəfindən həyata keçirilən fəaliyyətin milli qanunvericilik imkanları da nəzərə alınmaqla, qarşısını alacaq effektiv tədbirlər görməyə çağırır.

Vurğulanıb ki, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaq edilməsinə cəhd göstərən siyasəti uğursuzluğa məhkumdur. Münaqişənin davamlı və uzunmüddətli həllinə nail olmaq üçün yeganə yol BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrində tələb edildiyi kimi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ regionu və işğal olunmuş digər ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasının təmin edilməsidir.

Azərbaycan Respublikası öz suverenliyi və ərazi bütövlüyünün, xüsusilə işğal olunmuş ərazilərində hər hansı yol və vasitə ilə qeyri-qanuni fəaliyyətin həyata keçirilməsi və ya onda iştirak da daxil olmaqla, pozulmasına imkan verməyəcək. Beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünü, eləcə də vətəndaşlarının hüquqları və qanuni maraqlarını qorumaq üçün Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz fəaliyyətlərlə bağlı özünün milli hüquq sistemi və qeyri-qanuni fəaliyyətə cəlb olunmuş üçüncü ölkənin yerli məhkəmələri vasitəsilə fərdlər və şirkətləri təqib etmək məcburiyyətində qalması kimi hər hansı bir fəaliyyətin nəticələrinin məsuliyyəti bütünlüklə Ermənistan Respublikasının və qeyri-qanuni fəaliyyətə cəlb olunmuş fiziki və hüquqi şəxslər, şirkətlər və qurumların üzərinə düşəcək.

PEŞƏ BİLİKLƏRİNİN DAHA DA ARTIRILMASI ÜÇÜN ƏLAVƏ TƏLİMLƏR KEÇİRİLİR

Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub hissəsində gömrük orqanları qarşısında duran vəzifələrin yerinə yetirilməsi, üzən nəqliyyat vasitələrinin gömrük qaydalarına riayət etməsinin təmin olunması, dəniz və sahilboyu ərazilərdə gömrük nəzarətinin həyata keçirilməsi, eləcə də qaçaqmalçılıq yolu ilə dəniz nəqliyyatı vasitəsilə malların gömrük ərazisinə gətirilməsinin qarşısının alınması sahəsində müvafiq işlər görülür.

Qeyd edilən funksiyalar gömrük orqanlarının istifadəsində olan və keşikçəkmə (patrulluq) kiçikhəcmli gəmilər vasitəsilə həyata keçirilir.

Martın 1-dən etibarən sözügedən sahədə gəmilərin şəxsi heyəti və gömrük əməkdaşlarının su nəqliyyatı vasitələrinin idarə olunmasında təhlükəsizlik qaydaları və normaları üzrə peşə biliklərinin daha da artırılması üçün əlavə təlimlərə başlanılıb.

Təlimlər "Bütün dənizçilər üçün təhlükəsizlik üzrə tanışlıq, ilkin hazırlıq və təlimat" və "Gəmi mühafizəsi üzrə məsul şəxs" mövzularında təşkil olunub. Təlimləri Azərbaycan Dövlət Dəniz Akademiyasının Dənizçilərin Hazırlanması və Sertifikatlandırılması Mərkəzinin mütəxəssisləri aparır.

Kursun sonunda gəmilərin şəxsi heyətinə və gömrük əməkdaşlarına sertifikatlar veriləcək.

Mürəkkəb yedəkləmə əməliyyatı uğurla sona çatdı

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Andoqa" və "Lyutoqa" təchizat-yedək gəmiləri texniki baxımdan çox mürəkkəb yedəkləmə əməliyyatını uğurla həyata keçiriblər.

Sinqapurun "Ezion Exerter Limited" şirkətinə məxsus, ağırlığı 12 min ton, hündürlüyü 130 metr olan yarımdalma qazma qurğusu martın 4-də səhər saat 7-də Xəzər dənizinin Türkmənistan şelfindəki təyinat nöqtəsinə çatdırılıb.

Azərbaycanda yığılmış qazma qurğusu, çətin hava şəraitinə baxmayaraq, 4 günlük keçid ərzində Bakı reydindən Türkmənistana yedəklənib.

Sifarişçiyə təhvil veriləcək qazma qurğusu Malayziyanın "Petronas" neft-qaz şirkəti tərəfindən istismar olunacaq.

"Xəzər dənizinin hidrometeorologiyası" atlasının elektron versiyası nəşr edilib

Kanadanın Sophia Publishing Group Inc. nəşriyyatı Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik H.Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov və İran İslam Respublikasının Xəzər Dənizi Tədqiqatları Mərkəzinin əməkdaşı Homayoun Xoşrəvanın "Xəzər dənizinin hidrometeorologiyası" atlasının elektron versiyasını nəşr edib.

Atlasın giriş hissəsində Xəzər dənizi və onun hövzəsinin fiziki-coğrafi və iqlim xüsusiyyətləri haqqında ümumi məlumat, Azərbaycan Respublikasında Xəzər dənizinin tədqiqatlarının təşkili tarixi, bu sahədə işləyən elmi-tədqiqat institutları və dövlət təşkilatları, onların fəaliyyətinin istiqamətləri və s. barədə ətraflı məlumat verilir. İran İslam Respublikasında bu tədqiqatlar son zamanlarda başlasa da, artıq genişləndirilir.

Atlas üç fəsildən, 270 xəritədən ibarətdir. Birinci fəsildə Xəzərin sahil zonasının və dibinin geomorfoloji xüsusiyyətləri və xəritələri, onların şərhi təqdim olunur.

İkinci fəsil dənizin fiziki xassələrinə həsr olunub. Burada dənizin axınları və su dövranları, səth dalğaları, suyun temperaturu, duzluluğu, şəffaflığı, alberdosu və başqa parametrlərin xəritələri və onların şərhləri verilir. Xəzərin əsas problemlərindən olan səviyyə problemi də bu fəsildə əksini tapıb.

Üçüncü fəsil Xəzər dənizinin iqlimi və meteorologiyasından bəhs edir. Havanın temperaturu, rütubəti, şəffaflığı, buludluluq, küləyin istiqaməti və sürəti, günəş radiasiyası və istilik büdcənin xəritələri verilib.

Atlas bütün dünyada Xəzər dənizi ilə maraqlanan təsərrüfat işçiləri və elmi tədqiqatçılar üçün maraqlıdır.

Martın 27-də Azərbaycan ərazisində yay vaxtına keçiləcək

Martın 27-də Azərbaycan ərazisində yay vaxtına keçiləcək. Həmin gün saat 04:00-da saatların əqrəbləri 1 saat irəli çəkiləcək, bununla da ölkədə qış vaxtı başa çatacaq.

Qeyd edək ki, qış və yay vaxtlarının tətbiqi barədə Nazirlər Kabineti 1997-ci ildə qərar verib. Qərara əsasən, hər il oktyabrın son bazar günündə ölkə ərazisində qış, martın son bazar günündə isə yay vaxtına keçilir.

XƏZƏRDƏ GƏMİÇİLİYİN TARİXİNDƏN

Azərbaycan xalqının II Dünya müharibəsi illərində tərəqqipərvər bəşəriyyət qarşısında böyük xidmətlərindən biri də alman faşizminin məğlub edilməsi üçün Sovet ordusunu yanacaqla təmin etməsindən ibarət olmuşdur. Bu xidməti siyasi müstəviyə çevirən Ulu Öndərimiz Heydər Əliyev demişdir: "Əgər Bakı nefti olmasaydı, Sovetlər İttifaqının qələbəsi mümkün deyildi…"

Hitlerin planına görə, İkinci Cahan savaşında Sovetlər İttifaqı üzərində qələbədən sonra Almaniya ordusu Hindistan hüdudlarına qədər uzanan geniş əraziləri zəbt edərək, dünya ağalığına nail olmalı idi. Bunun üçün isə Azərbaycanın neft rayonları ilk növbədə işğal edilməli və Almaniya ordusuna xidmət etməli idi.

Faşist Almaniyası 1939-cu ilin martında Rumıniya ilə bağladığı müqaviləyə əsasən, onun Ploeşti neft rayonuna nəzarət edirdi və Bakı neftinə də nəzarətə nail olsaydı, faşist ordusu İngiltərə və Fransaya qarşı hərbi əməliyyatlarda qələbəni daha tez əldə edə bilərdi. Buna görə də İngiltərə və Fransanın hərbi dairələrində Bakı neftinin müqəddəratı məsələsi 1940-cı ilin əvvəlində geniş müzakirə edilirdi. Müzakirələrin yekununda Bakıya bomba zərbəsi endirilməsi planı qəbul edilmədi, bunun əvəzinə Bakı neftinin Almaniyaya Qara dəniz vasitəsilə daşına bilməsinin qarşısını sualtı qayıqlar vasitəsilə almaq planı qəbul edildi.

Beləliklə, İkinci Dünya müharibəsi Azərbaycanın sərhədlərindən çox uzaqlarda başlasa da, neft Bakısı üzrə hərbi sahədə qorxu elə həmin dövrdə yaranmışdı və Sovet hərbi rəhbərliyi Bakı neft rayonunun müdafiəsi üçün müəyyən tədbirlər görürdü.

1942-ci ilin 4 mayında gündüz Bakı üzərində Almaniyanın kəşfiyyat təyyarəsi müşahidə edilmişdi. "Alman təyyarəsinin Bakıya uçuşu" məsələsi Sovet hökumətinin (XKS) 5 may 1942-ci il tarixli iclasında müzakirə edilmiş və şəhərin hava hücumundan müdafiəsi tədbirləri müəyyən edilmişdi. 1942-ci ilin 23 iyununda Stalinin yanında Bakının müdafiəsi məsələsi müzakirə edilmiş və 58-ci ordu Bakıya gətirilmişdi. Həmin ilin 16 sentyabrında SSRİ Dövlət Müdafiə Komitəsi Bakının müdafiəsi üçün xüsusi qərar qəbul etmişdi.

SSRİ-yə qarşı müharibəni 1941-ci ildə başa çatdırmaq haqqında Hitlerin planı baş tutmayanda o, anladı ki, Qafqaz neftini ələ keçirmədən müharibəni davam etdirmək mümkün olmayacaqdır. Buna uyğun olaraq Hitler Moskva istiqamətində təkrar hücum cəhdindən əl çəkərək, 1942-ci ildə əsas zərbəni Qafqaz istiqamətinə yönəltdi və gizli plan hazırlatdı.

Qərbin hərbi siyasət üzrə ekspertləri Hitlerin belə bir addım atacağını gözləmirdilər. II Dünya müharibəsi illərində ABŞ prezidentləri F. Ruzvelt və H. Trumenin hərbi hissələr üzrə məsləhətçisi olmuş admiral Uilyam Leki öz xatirələrində yazır ki, 1941-ci ilin yayında Hitler Rusiyaya (Sovetlər İttifaqına) hücum edəndə biz hesab etdik ki, "Alman orduları SSRİ-nin qərb rayonlarını və Qafqazı işğal etdikdən sonra Hitler Stalinə sülh təklifi ilə müraciət edər. Qafqazın neft mədənlərinin işğalı isə bütünlükdə Avropanın istilasını reallaşdıra bilərdi. Lakin bu təhlükəli hadisə baş vermədi. Hitler Rusiyanın içərilərinə doğru irəlilədi və bununla da alman ordularının bütün əvvəlki nailiyyətlərini heçə endirdi. Almanlar 1941-1942-ci illərin qış kompaniyası dövründə Stalinqradda və Rostovda ağır məğlubiyyətlərə uğrayaraq geri çəkiləndə hamımız rahat nəfəs aldıq. Bununla da nəinki Bakı və onun tükənməz nefti, eləcə də bütün Yaxın Şərqin zəngin neft mədənləri alman işğalçılarından azad edildi."

Müharibə başlanan kimi, Bakının bir çox sənaye müəssisələrinin funksiyaları dəyişdirildi. Bakı döyüşən ordunu yanacaqla təmin edən güclü və etibarlı baza, 130 növ silah və hərbi sursat istehsal edən əsl cəbbəxana idi. 1941-ci ilin dekabrında noyabrla müqayisədə minomyot istehsalı 6 dəfə, əl qumbarası 5 dəfə, PPŞ avtomat silahı 20 dəfə artdı. Kütləvi döyüş sursatı hesab olunan mina, aviasiya bombası, əl qumbarası istehsal edildi. 1941-ci ilin dekabrından "Yak-3" qırıcı bombardmançı təyyarələrin istehsalına başlandı. 1942-ci ilin əvvəlində təyyarə təmiri zavodu tikildi.



1941-ci ildə Azərbaycanın tarixində rekord həcmdə 23,5 milyon ton neft hasil olundu ki, bu da ittifaqda çıxarılan neftin 71,4 faizini təşkil edirdi. Ölkədə istehsal edilən neftin 70-75%-ni, aviasiya benzini istehsalının 85-90%-ni Bakı verirdi. Ümumiyyətlə, müharibə illərində Bakı neftçiləri 75 milyon ton neft, 22 milyon ton benzin, 22 milyon ton sürtgü yağları, 6,5 milyard kubmetr qaz istehsal etmişdilər.

1941-ci il iyunun 1-nə olan məlumata görə, Xəzər Dəniz Gəmiçiliyinin 69 tankeri və 76 quru yük gəmisi var idi. Bundan əlavə, SSRİ Dəniz Donanması Xalq Komissarlığının göstərişi ilə sərnişin daşımaq məqsədilə Xəzər Dəniz Gəmiçiliyinə 11 tanker ayrılmışdı. «Dağıstan», «Türkmənistan», «Qırğızıstan» gəmiləri yaralıları daşımaq üçün üzən qospital kimi fəaliyyət göstərirdi.

Müharibə illərində Xəzərin dəniz yolları Zaqafqaziya cəbhəsi və bütün ölkə üçün müstəsna dərəcədə mühüm əhəmiyyəti olan kommunikasiyaya çevrilmişdi. İntensiv qaydada döyüş texnikası və yanacaq daşınırdı.

Maye yanacaq daşınması ilə "Xəzərtanker" və "Reydtanker" gəmiçilik idarələri məşğul olurdular. 1942-ci ilin oktyabrında Mahmud Rəhimov "Xəzərtanker"in rəisi təyin edilmişdi.

Kürün mənsəbindən Volqanın mənsəbindək Xəzər dənizinin qərb sahillərinin işıqları gizli yandırılırdı. Gəmilər "Dənizdə toqquşmaların qarşısını almaq qaydaları"nın nəzərdə tutduğu işıqlar olmadan üzürdülər

1942-ci ilin ortalarında Xəzər dənizində vəziyyət xeyli mürəkkəbləşmişdi. Stalinqrad istiqamətində və Qafqaz uğrunda döyüşlərlə əlaqədar faşist təyyarələri gəmilərimizi bombalayırdılar. Bu zaman Xəzər nəqliyyat donanmasında xüsusi cədvəl tərtib edilmiş və cəbhəyə göndərilən qoşunların və yüklərin daşındığı qatar və gəmilərin növbədənkənar hərəkəti nəzərdə tutulmuşdu. Həmin vaxtlarda Bakı dəmir yol qovşağına yüzlərlə vaqon yük gəlir və Xəzər dənizi vasitəsilə gəmilərlə külli miqdarda döyüş sursatı, neft məhsulları yola salınırdı. Belə bir vaxtda Bakı neftinin daşınması çox təhlükəli idi. Ancaq dənizçilər həm də düşmənə müqavimət göstərən igid bahadırlara çevrilirdilər. Neftdaşıyan donanmanı hava basqınlarından qorumaq üçün tankerlərə müdafiə topları və zenit pulemyotları qoyulurdu.

Dənizçilər dünya təcrübəsində ilk dəfə olaraq neftlə doldurulmuş sisternləri gəmilərin yedəyinə alıb aparırdılar. Bu üsulla Xəzər dənizçiləri Bakıdan Krasnovodska (Türkmənbaşı) 35 neftdaşıyan dəmiryol sisterni, Mahaçqaladan Krasnovodska hər birinin ağırlığı beş ton olan neft çənləri daşımışdılar.

Xəzər neftdaşıma donanmasının dənizçiləri yalnız iyun ayında cəbhə üçün plandan əlavə 17 min ton neft məhsulları daşıdılar. Jolobovun kapitan olduğu gəminin heyəti cəbhənin ehtiyacı üçün hər səfərdə əlavə 200 ton yanacaq daşıyırdı, kapitan Rəcəbovun gəmisi isə hər səfərə əlavə 400-600 ton benzinlə çıxırdı.

Quru yük gəmiçiliyinin dənizçiləri də əlavə yüklər daşıyır, limançılar gecə-gündüz çalışır, gəmi təmirçiləri gəmiləri vaxtından əvvəl təmir etməklə yanaşı, hərbi sifarişləri yerinə yetirirdilər.

Gəmilərdə, zavodlarda, limanlarda müharibə dövrünün çoxyüzçüləri, çoxdəzgahçıları, staxanovçuları meydana çıxmışdı.

Xəzər neft donanması və quru yük daşıyan donanmanın bir çox gəmi heyətləri zavod təmirinə dayanmadan üzürdülər.

1942-ci ildə düşmən Qafqaz dağlarının ətəklərində idi. Alman təyyarələri Xəzər dənizi üzərində, neft və quru yük daşıyan gəmilərin üzərində görünürdü. Yanacaq, döyüş sursatı, silah, ərzaq, dəzgah, maşın, paravoz və köçürülən əhalini daşıyan gəmi karvanları qaranlıqda işıqsız hərəkət edirdi. Çətin dövr idi. Dənizin üzərində get-gedə daha çox faşist təyyarələri görünürdü. Onlar gəmiləri atəşə tutur və bombalayırdılar. Mexanizmləri, avadanlığı dənizçilərin özləri təmir edirdilər.

Sosialist Əməyi Qəhrəmanı, motorçu Ramazan İbadov o günləri belə xatırlayırdı:

- Lənkərandan Bakıya gələndə on altı yaşım var idi. Müharibə gedirdi. Nə yaşıma, nə də boyuma görə orduya aparmırdılar. Dənizçilik məktəbinə daxil oldum. Qırx ikinci ildə "Azərbaycan" tankerində üzməyə başladım. Faşistlərin bombardmançı təyyarələri tez-tez gəmilərmizə basqın edirdilər. Halbuki gəminin alova bürünmüş adaya çevrilməsindən ötrü elə bir bomba, bir pulemyot atəşi də kifayət edərdi. Heyətin mərdliyi və ustalığı köməyə çatırdı. Biz bacarıqla manevr etmək, zenit topları ilə gəmiləri qorumaqla xaç nişanlı quzğunların niyyətini puça çıxarırdıq.

Ramazan İbadovun həyatında ilk döyüş qırx ikinci il avqustun axırlarında Həştərxan dəniz reydində baş vermişdi. Tankerin heyəti düşmən təyyarəsinə vaxtında atəş açaraq bomba atmağa imkan vermədi. Halbuki gəmidə peşəkar zenitçilər yox idi. Topçuların işinə ikinci donkerman Svyakolkin rəhbərlik edirdi. Elektrik mexaniki Çerpakov tuşlayıcı idi, motorçu İbrahimov mərmi daşıyırdı, mexanikin dördüncü köməkçisi Mixaylin isə topları doldururdu.

Donanmada Ramazan İbadov kimi yeniyetmələr çox idi.

Gəmilərdə qadınların da sayı çoxalmışdı. Sinəsini "Qırmızı Ulduz" ordeni bəzəyən Şövkət Şahbaz qızı Səlimova sərnişin gəmisinin kapitanı idi. O, yaralıları daşımaq üçün Stalinqrada cəsarətli səfərlər edirdi. Qırx ikinci ildə təkcə "Xəzərtanker"in gəmilərində 523 qadın işləyirdi ki, bu da idarənin bütün gəmi heyətlərinin dörddən bir hissəsinə bərabər idi. Onlar cəbhədə döyüşən atalarını, ərlərini və qardaşlarını əvəz edirdilər.

Qırx birinci ilin axırlarında Xəzər dənizi ilə strateji yüklərin – taxılın, müvəqqəti olaraq düşmənin tutduğu ərazilərdən köçürülən sənaye müəssisələrinin avadanlıqlarının, İran limanlarından isə çoxlu tranzit yüklərin daşınma həcmini xeyli artırmaq tələb olunmuşdu. Xəzər gəmiçiliyinin quru yük daşıyan gəmilərinin tonnajı get-gedə artmaqda olan yük axınının öhdəsindən gəlməyə imkan vermirdi. Bu məqsədlə də orta ölçüdə olan "Fedya Qurbanov", "Sovet Gürcüstanı", "Na vaxte", "Lunaçarski", "Krasnı leyt. Şmidt", "Klara Setkin", "Budyonnı", "Norma", "Katayama" gəmiləri və başqaları yük daşımağa uyğunlaşdırılmışdı. Faşistlər tərəfindən dağıdılmış şəhər və kəndlərin sakinlərinin təhlükəsiz ərazilərə köçürülməsində də dənizçilərin xidməti böyük idi. "Xəzərtanker"in yeddi iri gəmisi başqa yerlərə köçürülən əhalini daşımaq işinə cəlb edilmişdi. 15 sərnişin səfəri yerinə yetirilmişdi. "Ağamalıoğlu", "Syurupa", "VKP(b)", "A. Jdanov", "Azərbaycan" tankerləri hər səfərdə 5500 nəfərədək sərnişin qəbul edirdilər. "Xəzərtanker"in gəmiləri təkcə 1941-ci ilin noyabr və dekabr aylarında 141525 sərnişin daşımışdılar.

Mahmud Rəhimov həmin günləri xatırlayarkən demişdi:

- 1942-ci ilin yayında bu təcrübə daha mühüm, daha əhəmiyyətli bir iş üçün lazım oldu. Üç Sibir diviziyasını Həştərxan dəniz reydindən Mahaçqala limanına daşımaq barədə göstəriş almışdıq. Bu tapşırığı yerinə yetirməkdən ötrü təkcə iri tankerlər deyil, "Volqa", "Krestyanin", "Raboçi", "Valeri Çkalov" kimi orta həcmli tankerlər də göndərilmişdi. Hər şey operativ qaydada, itkisiz təşkil edilmişdi. Diviziyalar Qroznıya vaxtında çatdırılmışdı. Faşistlər dayandırılmışdılar.

Sovet İttifaqı marşalı A.A. Qreçkonun yazdığı kimi, Xəzər kommunikasiyası faşistlər Qafqazdan qovulanadək mühüm kommunikasiya olaraq qalırdı. Çünki o vaxt bu kommunikasiya ölkəmizin şərq və mərkəzi rayonlarından Zaqafqaziyaya yeganə mühüm yük yolu idi. Qafqaz sıra dağlarının ətəklərini işğalçılardan təmizləməyə, bütün Şimali Qafqazı azad etməyə xeyli kömək etmiş qüvvələr məhz həmin yolla Qafqaza gətirilimişdi.

Sovet Ordusunun Stalinqrad ətrafında 300 minlik faşist qoşunları qrupunun mühasirəsi ilə başa çatan əks-hücumu hazırlanarkən "Xəzərtanker" DMK-nın 1942-ci il 19 oktyabr tarixli qərarına əsasən şimala 36400 ton yanacaq daşımalı idi. Bunun üçün Həştərxanda naviqasiya bağlananadək çox az vaxt verilmişdi. Dənizçilər həmin səfərləri Xəzər Hərbi Donanmasının gəmilərinin müşayiəti ilə keçirirdilər. Budur, gəmi jurnallarından 1942-ci ilin avqustunda Həştərxan dəniz reydində işləri xarakterizə edən çıxarışlar:

"Lenin" tankeri, 7 avqust. Saat 18:13 dəqiqədə döyüş həyəcanı . 7 təyyarənin basqını...".

"VKP(b)" tankeri, 23 avqust: "Neft məhsulları boşaldılanda hərbi hissə və döyüş texnikası yüklənərkən saat 10:50 dəqiqədə "YU-88"-in basqını. İki bomba atdı. Bacarıqla manevr edildiyindən bombalar tankerə düşmədi. Gəmi artilleriyasının atəşi ilə düşmən təyyarəsinin basqını dəf edilmişdir". Tankerin kapitanı "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuş Fətulla Fətullayev idi.

"Ağamalıoğlu" tankerinə dörd bombardımançı basqın etmişdi. Düşmən 15 bomba atmışdı. Bombalardan biri tankerin arxa tərəfinin yaxınlığında düşmüşdü, ikinci bomba sağ bortun kənarında partlamışdı. Gəmi manevr edərkən dayazlığa düşüb hərəkətsiz qalmışdı. Bomba komandir körpüsünə düşənədək hücum davam etmişdi. Topçular dəstəsi məhv olmuşdu. Tankerin kapitanı Əlibala Rəcəbov ağır yaralansa da öz postunu tərk etməmişdi...

Bəli, Azərbaycan dənizçiləri o vaxt ümumi vətən adlandırdığımız sovet ölkəsinə belə xidmət edir, səngərə çevrilmiş gəmilərimizdə ölümün gözünə dik baxa-baxa ən çətin tapşırıqları layiqincə yerinə yetirirdilər.

Böyük Vətən müharibəsi illərində Xəzər Dəniz Gəmiçiliyinin 1534 işçisi rəşadətli əməyinə, qəhrəmanlığına və igidliyinə görə SSRİ-nin orden və medalları ilə təltif olunmuşdu.

"DƏNİZ"

SƏRGİLƏR BİZNES PERSPEKTİVLƏRİNİ DAHA DA GENİŞLƏNDİRİR

Beynəlxalq sərgilərin təşkilatçısı "Iteca Caspian" şirkəti bu il 16 sərgi və 1 konfrans olmaqla, ümumilikdə 17 tədbir keçirməyi planlaşdırır. Sözügedən sərgilər müvafiq dövlət strukturlarının dəstəyi ilə Bakı Ekspo Mərkəzində keçiriləcəkdir ki bu da sərgilərin ölkə iqtisadiyyatındakı rol və mövqeyinin əhəmiyyətini bir daha əyani şəkildə əks etdirir.

Hazırda 2016-cı ilin sərgi mövsümündə keçiriləcək tədbirlərdə iştirak üçün müraciətlər qəbul edilir. Onu da deyək ki, bu il dörd sərgi öz yubileyini qeyd edir. Beləliklə, cari ilin sərgi mövsümü 15-ci Yubiley Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisi AITF 2016 və 10-cu Yubiley Qafqaz Beynəlxalq Mehmanxana, Restoran və Supermarketlər üçün Avadanlıq və Ləvazimatlar Horex Caucasus 2016 sərgiləri ilə açıq elan olunacaq. Bu illər ərzində bütün Xəzəryanı regionda mühüm görüşlərin keçirildiyi, tərəfdaşlıq müqavilələrinin imzalandığı, habelə yeni proqram və istiqamətlərin elan edildiyi "HOREX" və "AITF" sərgiləri qonaqpərvərlik və turizm sənayesinin əsas tədbiri statusunu qazanmağa müvəffəq olmuşdur. Bir neçə ildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "AITF" sərgisini ziyarət edərək sərgidəki ekspozisiyalara baş çəkir və sərgi iştirakçıları ilə tanış olur. Ölkə rəhbərliyi tərəfindən göstərilən diqqət turizm sahəsində işgüzar münasibətlərin inkişafını daha da stimullaşdırır. Yarandığı gündən etibarən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin fəal dəstəyi ilə keçirilən "AITF" sərgisi həmçinin bu tədbirdə daim iştirak edən Azərbaycan Turizm Assosiasiyası (AZTA) tərəfindən dəstəklənir. Ümumdünya Turizm Təşkilatı (UNWTO) və Asiya-Sakit Okean Turizm Assosiasiyası (PATA) "AITF" sərgisinə dəstək göstərən beynəlxalq təşkilatlar arasında yer alırlar.

Bu il "AITF" sərgisində dünyanın 40 ölkəsini təmsil edən 200-dən artıq şirkətin iştirakı gözlənilir. Belarus, Bolqarıstan, Macarıstan, Gürcüstan, Dominikan Respublikası, Hindistan, İndoneziya, İran, İspaniya, Tailand, Türkiyə, Xorvatiya, Monteneqro (Çernoqoriya) və Çexiya milli pavilyonları sərgidə iştirak üçün yer rezervasiya ediblər. Həmçinin, sərgidə Stavropol vilayəti və Yurmala kimi regionlar da ayrıca stendlərlə nümayiş olunacaqlar. Ənənəvi olaraq, AZTA stendində Azərbaycanın turizm şirkətləri, otel və sanatoriyaların təklifləri ilə tanış olmaq mümkün olacaq. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin stendi və ölkə regionlarının ənənəvi ekspozisiyaları çərçivəsində isə Azərbaycanın daxili turizm potensialı bütün çalarları ilə təqdim olunacaq. Həmişə olduğu kimi, sərgi ənənəvi sektorlarla yanaşı, "Tibbi və sağlamlıq turizmi" sektorunu da inkişaf etdirir.

"HOREX Caucasus" 2016 sərgisində "Mehmanxana, Restoran və Kafelər" "HoReCa" sektoru üzrə aparıcı yerli və beynəlxalq istehsalçı və distribyutorların təklif etdikləri peşəkar mətbəx və ticarət avadanlıqları, mehmanxana və restoranlar üçün mebel, habelə tekstil (parça) və uniformalar, peşəkar gigiyenik vasitələr, eləcə də qida məmulatları və içkilər təqdim olunacaq.

May ayından etibarən isə estafeti bu il öz 15 illik yubileyini qeyd edən Xəzər Beynəlxalq Dəmiryol İnfrastrukturu və Hərəkət Heyəti, Dəniz Sənayesi, Aviasiya, və Daşımalar və Logistika "TransCaspian" və 6-cı Xəzər Beynəlxalq Yol infrastrukturu və İctimai nəqliyyat "Road&Traffic" sərgiləri davam etdirəcək. İlk dəfə olaraq, bu il 3-cü Xəzər Beynəlxalq "Kater və Yaxtalar" "CIBS 2016" sərgisi "TransCaspian" və "Road & Traffic" sərgiləri ilə eyni platformada keçiriləcəkdir.

Həmişəki kimi, regiondakı energetika bazarının iştirakçılarını qiymətləndirmək üçün ən yaxşı platforma qismində 6-cı Xəzər Beynəlxalq Energetika və Alternativ enerji "Caspian Power 2016" sərgisi və regionun ən böyük ixtisaslaşdırılmış - 23-cü Beynəlxalq Xəzər Neft və Qaz "Caspian Oil and Gas 2016" sərgi və konfransı çıxış edəcək (1- 4 iyun).

Cari ilin sentyabr ayında isə payız sərgi mövsümünə start veriləcək və bu mövsüm çərçivəsində 22-ci Azərbaycan Beynəlxalq Səhiyyə "BIHE 2016", 10-cu Yubiley Azərbaycan Beynəlxalq Gözəllik və Estetik Tibb "Beauty Azerbaijan 2016", 22-ci Azərbaycan Beynəlxalq İnşaat "BakuBuild 2016", 9-cu Beynəlxalq İstilik, Havalandırma və Kondisiyalaşdırma sistemləri "Aqua-Therm Baku 2016", 9-cu Xəzər Beynəlxalq Mühafizə, Təhlükəsizlik və Xilasetmə vasitələri "CIPS Caspian 2016" və 22-ci Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya texnologiyaları "Bakutel 2016" sərgilərinin keçirilməsi planlaşdırılır.

Bütün dünyanı bürüyən maliyyə böhranına baxmayaraq, bazarın ən iri iştirakçıları bu sərgilərə sponsorluğu davam etdirirlər ki, bu da tədbirlərin xüsusi statusunu vurğulayır. Belə ki, cari ildə keçiriləcək sərgilərin sponsorları arasında Azeri M-I Drilling, Caspian Drilling Company, Caspian Marine Services, Global Energy, RusNeft, AZFEN J.V., Tekfen Construction, Bos Shelf, Socar Polymer, Nobel Oil Upstream, Schlumberger, SNAM, INPEX, Caspian Geophysical, Qazax Sement Zavodu, NB Group kimi şirkətlər var. "Iteca Caspian" şirkətinin 2016-cı il üzrə tərəfdaşları arasında "SafeLife" şirkəti (təhlükəsizlik üzrə rəsmi tərəfdaş), habelə rəsmi turoperator "Premier Tour" şirkəti, rəsmi otellər - "Sheraton Hotel" və "Qafqaz Point Hotel" mehmanxanaları, eləcə də "AzExpoMontage" şirkəti (rəsmi montajçı) yer alır. Hazırda şirkətlər yaxşı başa düşürlər ki, sərgilər problemləri müzakirə etmək və həll yollarını müəyyənləşdirmək üçün yaxşı imkandır. Hər bir şirkət özünü reklam etməklə yanaşı, ixtisaslaşmış tədbirlərə qatılmalı və həm özü, həm də istehsal etdiyi məhsullar barədə məlumat verməklə, yeni satış kanalları axtarmalıdır. Bu baxımdan, məhz sərgilər yeni imkanlar yaradaraq biznes perspektivlərini daha da genişləndirir. Hal-hazırda, bir sıra şirkətlər öz qiymət siyasətlərini yenidən nəzərdən keçirir və özlərinə yeni podratçılar axtarır. Buna görə də, daim göz önündə olmaq və yeni əlaqələr qurmaq mühüm əhəmiyyət kəsb edir.

Sərgilərin keçirilməsi ilə bağlı daha ətraflı məlumat üçün "Iteca Caspian" şirkətinin rəsmi veb-saytına (www.iteca.az) müraciət etmək olar. Sözügedən veb-sayt bu il öz interfeysini tam dəyişmişdir, belə ki, indi veb-saytın daha dəqiq və aydın strukturu bütün zəruri materialları (sərgilərin təqvimi, foto-şəkillər, video-materiallar, eləcə də sərgilər və sərgi biznesi haqqında məqalələri) ehtiva edən bölmələrdən ibarətdir. Həmçinin, bu il sərgi brendlərini müştərilərə daha çox istiqamətləndirmək və onların tanınma səviyyəsini yüksəltmək məqsədi ilə "ITE" şirkətinin dünya brendlərinin sənaye qruplarına daxil olan bir sıra sərgiləri müsbət mənada dəyişikliyə məruz qalıb. Belə ki, Azərbaycan beynəlxalq "Qida sənayesi" "WorldFood Azerbaijan" və Xəzər beynəlxalq Yol infrastrukturu və İctimai nəqliyyat "Road & Traffic" sərgiləri yeni brend və loqotiplə çıxış edirlər. Azərbaycanın birinci ixtisaslaşdırılmış sərgisi olan beynəlxalq "Xəzər Neft və Qaz" "Caspian Oil and Gas" sərgi və konfransının da loqosu dəyişmişdir. Payız mövsümünə daxil olan və kompleks "rebrendinq" mərhələsindən keçmiş sərgilər arasında "CIPS Securika" sərgisi, eləcə də regionun ən genişmiqyaslı tədbiri olan "BakuBuild" sərgisi yer alır.

Beləliklə, paytaxt Bakı şəhərini zəngin sərgi mövsümü gözləyir və daha öncə qeyd etdiyimiz kimi, bu il bir neçə sərgi öz yubileyini qeyd edəcək. Buna görə də, təşkilatçılar tərəfindən iştirakçı və ziyarətçilərdə Bakıda keçirilən sərgilərlə bağlı parlaq və xoş təəssürat yaradacaq yubiley proqramları planlaşdırılmışdır. Həmişə olduğu kimi, sərgilərdə həm eksponentlərin, həm də qonaqların rahatlığı üçün bir sıra xidmət növü təklif olunacaq, belə ki, "Fast Track" servisi vasitəsi ilə ziyarətçilərin "onlayn" qeydiyyatı bu il də davam etdiriləcəkdir. Eksponentlər və sərgi qonaqlarının rahatlığı üçün bir sıra xidmətlər təklif olunacaq, belə ki, sərgiləri ziyarət etmək arzusunda olanlar üçün xüsusi rahat avtobuslar ayrılacaq. Bu avtobuslar sərgi ziyarətçilərini "Koroğlu" metro-stansiyasından sərginin keçirildiyi Bakı Ekspo Mərkəzinə və geriyə pulsuz daşıyacaqdır. Həmçinin, sərginin keçirildiyi ərazidə iştirakçılar üçün biznes və mətbuat mərkəzləri, eləcə də kafe və restoran fəaliyyət göstərəcək.

BANKLARDA ƏMANƏTİNİZ VARSA...

Əmanətlərin Sığortalanması Fondundan bildiriblər ki, "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, qorunan əmanətçilər kateqoriyasına aid olan fiziki şəxslər xarici valyutada olan əmanətlərinin tam sığortalanamasını istədikdə, əmanət müqavilələrinə Fondun Himayəçilik Şurasının 2016-cı il 1 mart tarixli qərarına əsasən, müəyyən olunmuş xarici valyutada illik faiz dərəcəsi 3 olmaqla müvafiq dəyişikliklər edilməsi üçün əmanət müqavilələri bağlanmış banklara müraciət etməlidirlər. Bu zaman müddəti qurtarmamış əmanət müqavilələrində dəyişikliklər edildikdə, dəyişikliklər edildiyi günə qüvvədə olan müqavilənin şərtlərinə uyğun olaraq faizlər tam məbləğdə hesablanıb ödənilir.

Belə dəyişikliklərin edilməsində maraqlı olmayan, yəni mövcud əmanət müqaviləsində əmanətçinin əmanətlərinin məbləği 30 min manatdan çox deyilsə və faiz dərəcəsi 12 faizdən artıq deyilsə, onun əmanəti qorunur və sığorta olunur. Belə ki əmanət müqaviləsinin müddəti bitənədək əvvəlki şərtlərlə müddəti bitənədək sığortalı hesab edilir. Bu halda Fondun iştirakçı bankında sığorta hadisəsi baş verdikdə kompensasiyalar Fond tərəfindən əvvəlki miqdarda, yəni 30 min manata qədər məbləğdə ödənilir. Milli valyutada olan əmanətlər üzrə kompensasiya manatla, xarici valyutada olan əmanətlər üzrə isə əmanətlərin valyutasında ödənilir. Əmanətlər ABŞ dolları və ya avroda olmadıqda kompensasiya bu valyutaların biri ilə sığorta hadisəsinin baş verdiyi günə Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir.

Əmanət müqavilələrinin müddəti qurtardıqda həmin günə qorunan əmanətlər üçün hansı faiz dərəcəsinin qüvvədə olmasına diqqət yetirmək vacibdir. Bəzi hallarda əmanət müqavilələri eyni şərtlərlə təkrar uzadılır və həmin günə Fond tərəfindən qorunan əmanətlər üçün maksimal faiz dərəcəsi nəzərə alınmır və nəticədə faiz dərəcəsinə görə qorunan əmanət qorunmayan əmanət statusunu alır və kompensasiya ödənişi zamanı müştəriyə kompensasiya ödənişindən imtina edilir.

Azərbaycan manatında qəbul olunmuş əmanətçilərin əmanətlərində faiz dərəcəsi qorunan əmanətçilər üçün dəyişməyib (12 faiz qalıb), dəyişən yalnız məbləğdir. Yəni manatda olan qorunan əmanət üçün maksimum məbləğ 30 min manat idisə, yeni qanunla əmanətlər üçün məbləğ məhdudiyyəti aradan qaldırılıb.

Əmanətçilərin nəzərinə çatdırılır ki, "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq əmanətlər üzrə tam sığorta müddəti 3 ildir. Bu müddətdən sonra həmin əmanətlər üzrə kompensasiyalar əvvəlki məbləğdə, yəni 30 min manat məbləğində ödəniləcək.

Məsələn, A əmanətçi yanvarın 9-da bir il müddətinə X bankda 12 faizlə 10 min ABŞ dolları yerləşdirib. Bu əmanətçinin əmanətinin müddəti bitənədək onun əmanəti qorunur və sığortalanır. Sığorta hadisəsi baş verdikdə 10 min ABŞ dolları və faizləri Fond tərəfindən kompensasiya edilir.

B əmanətçi yanvarın 15-də 12 faizlə bir il müddətinə 100 min ABŞ dollarında əmanət yerləşdirib. Onun əmanətinin yalnız 30 min manata qədər olan hissəsi sığortalanır və kompensasiya məbləği 19 124 ABŞ dolları (30 000 (AZN) /1.5687(məzənnə)= 19124) təşkil edəcək və qalan vəsaiti (80 876 ABŞ dolları) sığorta hadisəsi baş vermiş bankdan almalı idi. Əgər bu əmanətçi əmanətinin tam sığortalanmasını istəyirsə, banka müraciət edir. Bank müraciət gününə qədər hesablanmış faizləri hesablayır və müştəriyə ödəyir. Müştərinin istəyini nəzərə almaqla qorunan əmanətlər üçün faiz dərəcəsini (ABŞ dolları və ya digər xarici valyutalar üçün 3 faiz) tətbiq etməklə yeni müqavilə bağlayır və müştərinin əmanəti tam qorunur. Sığorta hadisəsi baş verdikdə 100 min ABŞ dolları və faizləri tam şəkildə Fond tərəfindən kompensasiya edilərək ödənilir.

C əmanətçi Y bankda yanvarın 14-də 12 faizlə iki il müddətinə 200 min manat yerləşdirib. Sığorta hadisəsi baş verəndə əvvəllər əgər 30 min kompensasiya alacaqdırsa, yeni qanuna əsasən sığorta hadisəsi baş verəcəyi halda 200 min manatı və hesablanmış faizləri Fond tərəfindən tam kompensasiya edilərək ödəniləcək.

"Novruz bayramı Azərbaycan xalqının ən əziz və sevimli bayramlarından biridir. Əsrlər boyu xalqımız bu bayramı qeyd etmişdir. Ancaq müstəqillik dövründə bu bayram rəsmi şəkildə qeyd olunur. Azərbaycan xalqı Novruz bayramına ən hərarətli münasibət bəsləyir, o bizim üçün ən başlıca, ən gözəl bayramdır...Ailə dəyərləri, bizim milli-mənəvi dəyərlərimiz, ənənələrimiz, bizim milli mədəniyyətimiz, tariximiz – bütün bunlar Azərbaycan xalqını qorumuşdur. Uzun illər, əsrlər boyu biz başqa ölkələrin tərkibində yaşamışdıq. Ancaq milli xüsusiyyətlərimizi itirməmişik. Assimilyasiyaya düçar olmamışıq, öz dilimizi, adət-ənənələrimizi, milli bayramlarımızı qoruyub saxlamışıq."

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

BELƏ DEYİRLƏR:YENƏ YAZ GƏLİR

Yurdumuza BAHAR gəlir. Ətri ilə adamı bihuş edən, gözəlliyi ilə aşiqə çevirən, möcüzələri ilə heyrətə gətirən BAHAR!

Yurdumuza BAHAR gəlir. İlıq nəfəsilə dağların qarını, dərələrin buzunu selə döndərən BAHAR!

Gəlişi təbiətə yeni ab-hava gətirən, yatmış torpağı qış yuxusundan oyadan BAHAR. Topa-topa buludların bir göz qırpımında yağışa dönüb çöllərə çilənməsi, mavi səmanın ənginliklərində örpəyə bənzəyən lələkvari pənbə buludların naz ilə yoxa çıxması, təbiətin hər saatda bir dona girməsi adamın ruhunu yerindən oynadır.

Günəş üzümüzə gülümsədikcə ürəklərimiz müqəddəs arzular, saf və təmiz istəklər, işıqlı, nurlu diləklərlə dolur.

Gün-güzəranımız hər zaman bu ulu, ecazkar bayramın qədəmlərinin uğuruna güvənib. Buna görə, onun gəlişini elliklə toy-büsat kimi qeyd edir, pişvazına Baharın rəmzi səməni, şən mahnılar, şux rəqslərlə çıxırıq. Gör nə vaxtdır pişvazına hazırlaşırıq. Fevralın 23-dən başlanan çərşənbə axşamlarında SUDAN içərək, ODDAN keçərək, YELDƏ sərinlənərək, nəhayət, bu gün TORPAĞA baş əyirik.

Qışın şaxtasından-soyuğundan zinhara gələn əkin-biçin adamları tarlalara tələsirlər. Bilirlər ki, baharın nəfəsi dəyəndən sonra torpağın sinəsində açdıqları şırımlardan çox keçməz ki, ruzi-bərəkət gəl-gəl deyəcək.

Hələ sular... Novruzun doğma yurdumuza gəlişi, Baharın öz taxt-tacına çıxması dənizlərdə xüsusilə möhtəşəm olur. Bircə ay öncə bomboz bozaran, zəhmi adamın bağrını yaran, yerə-göyə meydan oxuyan dənizlərin hirsi-hikkəsi Baharın nəfəsi ilə yumşalıb. Tədricən sütun-sütun dalğaları pul-pul parıldayan ləpələr əvəz edir.

Ən əsası odur ki, Baharın isti nəfəsi dənizçilərə də "əl-qol açmağa" geniş meydan verir. Dalğaları səngiyən, suları şəfəqlər altında bərq vuran dəryalarda səfərlər daha uğurlu keçir, yükləri mənzil başına daha tez çatdırmaq imkanı yaranır. Gəmiçilərimiz bu imkandan yararlanıb müstəqil Azərbaycanımızın inkişafına və tərəqqisinə daha sanballı əmək nailiyyətləri - Novruz töhfələri verməyə çalışırlar.

Ümummilli Lider Heydər Əliyev Novruz bayramını xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran bayram kimi qiymətləndirmişdir: " Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir."

Minilliklər içərisindən keçib gələn bu qədim el bayramı hər addımda məruz qaldığı bütün qadağalara məharətlə sinə gərərək, müqəddəsliyini, saflığını, gözəlliyini qoruyub saxlaya bilmişdir. Keçmişimizlə öyünməyə, fəxr etməyə haqqımız var. Çünki xalqımızı milli-mənəvi dəyərlərindən döndərməyə, uzaqlaşdırmağa heç kimin - nə düşmənlərimizin, nə düşmənlərimizin dəyirmanına dəryalar qədər su tökənlərin, nə də zorən tərkibində yaşamağa məhkum edildiyimiz, bütün dünyaya meydan oxuyan nəhəng imperiyaların gücü çatmayıb! Onların hamısının ayrı-ayrılıqda və bir yerdə bütün səyləri puç olub, bütün cəhdləri boşa çıxıb! Əsrlərin sərt sınağından üzüağ çıxan xalqımız qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlılığını təcəssüm etdirən Novruza qucaq açа-açа, pişvazına çıxa-çıxa bu günlərə çatıb.

Rəsmən yasaq edildiyi dövrlərdə belə, xalq Novruzdan və onunla bağlı hər hansı bir mərasimdən imtina etməmiş, öz bayramını layiqincə keçirmişdir. Ərənliyini görən Novruz da borclu qalmamış, bütün gücü ilə Azərbaycan xalqının milli ruhunu qorumuş, yüksəltmiş, hər gələndə özünüdərkini gücləndirmiş, milli irsinə daha dərindən bağlanmasını təmin etmişdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin sözləri ilə desək: "Novruz bayramı xalqımızın ən sevimli bayramlarındandır. Azərbaycan torpağında həmişə əziz tutulan bu bayramın verdiyi tükənməz mənəvi güc sayəsində biz yüz illərdən bəri keçmişimizin çətin və mürəkkəb dövrlərində nikbinliyimizi qoruyub saxlamış, gələcəyə daim ümidlə baxmışıq. Novruz ənənələrinin layiqincə yaşadılması Azərbaycan xalqının çoxəsrlik tariximiz qarşısında müstəsna xidmətidir. Ən ali bəşəri keyfiyyətləri özündə toplayan böyük mənəviyyat və hikmət xəzinəsi olaraq yaz bayramı tarixi-mədəni irsə bağlılığımızı parlaq nümayiş etdirir."

Azərbaycanın təşəbbüsü ilə BMT-nin 2010-cu il 23 fevral tarixində 21 martı Beynəlxalq Novruz Günü elan etməsi də bu bayramın bəşəri miqyasda roluna yüksək önəm verildiyinə dəlalət edir.

BMT Baş katibinin Beynəlxalq Novruz Günü münasibətilə müraciətində (21 mart 2010-cu il) deyilirdi: "Beynəlxalq Novruz Gününün qeyd edilməsi ilə bağlı Baş Assambleyanın bu il qəbul etdiyi qərar bu bayramın yalnız onun keçirildiyi regionda deyil, həmçinin bütün dünyada artan önəminin tanınmasının ən bariz nümunəsidir. Min illər boyu, günəşin ekvatoru keçməsi və şimal yarımkürəsinin yaz fəslinə qədəm qoyması ilə Balkan, Qara dəniz hövzəsi, Qafqaz, Mərkəzi Asiya, Yaxın Şərq və digər regionların xalqları özlərinə məxsus adət-ənənələrlə Novruz Gününü bayram edirlər. Evlərin yenidən rənglənməsi, dost-tanışların ziyarət edilməsi, simvolik yeməklərin hazırlanması kimi ayin və adətlərin yerinə yetirilməsi yenilənmə ruhu ilə zəngindir və bu, yalnız Novruzu qeyd edənlərə deyil, bütün insanlara ilham verərək ruhlandıra bilər.

Bu il ilk dəfə olaraq Beynəlxalq Novruz Gününü qeyd edirik. Ümid edirəm ki, dünyadakı bütün dövlətlər və xalqlar bu bayramın tarixi və ənənələrinə əsaslanaraq təbiətlə insan arasında olan harmoniyanı və bəşəri sülh və xeyirxahlıq ideyalarını təbliğ edəcəklər."

Novruz gəlir, yaz gəlir.

Qoy bu Bahar bütövlükdə xalqımıza xoşbəxtlik gətirsin. Sərin yaylaqlarımızın, eninə-uzununa baş alıb gedən ormanlarımızın var-dövlətini bol eləsin. İntəhasız sular qoynunda səfərləri-səfərlərə calayan dənizçilərimizin, gəmilərə ikinci həyat bəxş edən gəmisazlayanlarımızın, gəmiçiləri qarşılayan və yola salan sahil işçilərinin... hər günü uğurla dolu olsun.

Əminəm ki, bütün Azərbaycan xalqının ən böyük arzusu budur ki, möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində torpaqlarımız tezliklə erməni işğalından azad edilsin, qaçqınlarımız gələn il Novruz tonqalını öz ata-baba yurdlarında qalasınlar.

Hər bir bayram həm də hesabat vermək üçün bir səbəbdir. Bu Novruzu "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin çoxminli kollektivi sular səltənətində və quruda qazandığı sanballı göstəricilərlə qarşılayır. Başqa sözlə, Novruzun pişvazına çıxmağa üzümüz, deməyə sözümüz var.

Xoş gəlirsən, Bahar! Qədəmlərin mübarək, Novruzum!

Bayramınız mübarək, istəkli oxucular!

Rasif TAHİROV

ANA UCALIĞI

Deyəsən alman şairi İohann Çillerin sözüdür: "Dünyanı yaşayış üçün yararlı hala salan qadınlardır." Bəli, qadınlarsız cəmiyyət ola bilməz, həyat ola bilməz. Qadınlar cəmiyyətin bəzəyi və qoruyucu mələkləridir.

Gözümüzə dəyən və dəyməyən, gördüyümüz və görə bilmədiyimiz nə varsa, Yaradan yaradıb. Yaradanın bəşəriyyətə ən gözəl, ən dəyərli, əvəzsiz ərməğanıdır ana! Bəzəyini könlünün xoş vaxtında vurub Allah!

Müqəddəs saydığımız, səcdəsində durduğumuz varlıqlar az deyil. Müqəddəslərin ən müqəddəsidir ana.

Kim ölçüb, nə ilə ölçüb, necə ölçüb, deyə bilmərəm, Everest də inciməsin, yer üzündə ən yüksək, ən uca zirvə Anadır.

İncələrin ən incəsi, kövrəklərin ən kövrəyi, zəriflərin ən zərifidir ana. İncə, kövrək, zərif olduqları qədər də güclüdür analar.

Cənnətin anaların ayaqları altında olduğuna inananların yeri cənnətdir. Başımızın tacının qədrini bilək. Qoruyaq onları. Dərdi, qəhəri, qüssəni analara yaxın buraxmayaq.

Bütün anaların arzuları bir-birinə bənzəyir. Sülh və əmin-amanlıq arzuları isə övladlarını xoşbəxt görmək istəyindən doğur.

Qadınlar Allah və cəmiyyət qarşısında öz məsuliyyətlərini biz kişilərdən bəlkə daha çox dərk edirlər. Azərbaycan xanımları ülvi amallar naminə zəngin ictimai fəaliyyətləri boyunca özlərinin daxili aləmlərinin ahəngdarlığını həmişə layiqincə qoruyub saxlayıblar, ən mürəkkəb, ən çətin dövrlərdə cəmiyyətimizin əsl mənəvi dayağı olublar. Bu gün Azərbaycan qadını deyəndə gözəl ana, sədaqətli ömür-gün yoldaşı və ümubəşəri ideallara sadiq layiqli vətəndaş anlaşılır. Anaların ən böyük xidməti isə varlığımızın anası saydığımız torpaqlarımızı qoruyan, onun yolunda canından keçməyə hazır olan övladlar böyütmələridir.

Üzərinə düşən sosial yükün ağırlığına baxmayaraq, xanımlarımız həmişə əzmkar olmuş, çətin günlərimizdə əsl dəyanət nümayiş etdirmişlər. Ulu Öndər Heydər Əliyev demişdir: " Azərbaycanda qadınlar da öz ağıllarına, biliklərinə, istedadlarına görə dünya qadınları içərisində özünəməxsus yer tuturlar. Ona görə də biz qadınlarımızla fəxr edirik."

Bəli, vəfanın, etibarın, sədaqətin rəmzidir mənəvi təbiətinə həmişə sadiq Azərbaycan qadını! Adının ucalığını bütün dövrlərdə ləyaqətlə qoruyub. Milli-əxlaqi dəyərlərimiz məhz analarımızın fədakarlığı sayəsində ən çətin sınaqlardan uğurla çıxmışdır.

Azərbaycan qadınları cəmiyyətimizin tam hüquqlu üzvləri kimi ölkənin sosial, iqtisadi və ictimai-siyasi həyatında fəal iştirak edirlər. Hazırda Azərbaycan əhalisinin ümumi sayının 50,2 faizini və ya 4 milyon 870,0 min nəfərini qadınlar təşkil edir.

Dövlətin daim diqqət mərkəzində saxladığı ən mühüm məsələlərdən biri də qadınların sağlamlığının qorunmasıdır. Hazırda ölkədə 20 doğum evi, 138 qadın məsləhətxanası, 251 uşaq poliklinikası və ambulatoriyası qadınların sağlamlığının keşiyində durur. Ölkənin sosial-iqtisadi həyatında fəal iştirak edən Azərbaycan qadınlarının məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi 48,5 faizdir.

Ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 78,5 faizi, orta ixtisas təhsil müəssisələrində 78,6 faizi, ali təhsil müəssisələrində 52,0 faizi, həkimlərin isə 65,0 faizi qadınlardır. Ümumi təhsil müəssisələrində şagirdlərin 46,0 faizi, orta ixtisas təhsil müəssisələrində oxuyanların 66,7 faizi, ali təhsil müəssisələrinin tələbələrinin 48,8 faizi qızlardır.

Elmin inkişafında da qadınların müstəsna rolu var. Elmi işçilərin 53,5 faizini qadınlar təşkil edir. Son 5 ildə həm elmlər doktoru, həm də fəlsəfə doktoru dərəcəsi olan qadınların sayı 2,3 dəfə artıb. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 5-i, müxbir üzvlərindən isə 14-ü qadındır.

Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 28,9 faiz, sahibkarlar arasında isə 19,7 faizdir. Bədən tərbiyəsi və idmanla məşğul olanların 40,6 faizi qadınlardır.

Milli Məclisdə qadın deputatları sayı da artır. Əgər 1990-cı ildə bütün deputatların 4,3 faizini, 2000-ci ildə 10,7 faizini qadınlar təşkil edirdisə, bu gün ölkə Parlamentində qadınların xüsusi çəkisi 16,9 faizə çatıb.

İlk bələdiyyə seçkilərinə nisbətən son bələdiyyə seçkilərində bələdiyyə üzvü seçilmiş qadınların sayı 6 dəfə artaraq 5 min 236 nəfərə çatıb və bələdiyyə üzvləri arasında onların xüsusi çəkisi 35,0 faiz olub. Bu göstərici ilk bələdiyyə seçkilərində 4,0 faiz təşkil edib.

İstedad və bacarıqlarını tam gerçəkləşdirə bilmələri üçün hər cür şərait yaradılan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin həyatını da xanımlarsız təsəvvür etmək mümkün deyil. Gəmiçiliyin çoxşaxəli və mürəkkəb təsərrüfatında yüzlərlə qadın çalışır. Başqa sözlə, bu gün elə bir idarə, müəssisə və təşkilatımız yoxdur ki, onun inkişafında qadınlar yaxından iştirak etməsinlər. Fırtınalar qoynunda mütəmadi səfərlərə çıxan dənizçi xanımların iradəsi, dözümü və peşəyə bağlılığı isə hər kəsdə heyranlıq doğurur.

Zərif cinsin nümayəndələrinə ünvanlanan bu sözlər isə dövlətimizin başçısı cənab İlham Əliyevin dilində səslənib: "İnanıram ki, sürətlə qloballaşan dünyada gənc nəslin çoxəsrlik tarixi-mədəni irsimizə ehtiram, vətənpərvərlik və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda yetişdirilməsi üçün siz bundan sonra da əlinizdən gələni əsirgəməyəcək, bütün gücünüzü, istedad və bacarığınızı ölkənin intellektual-mənəvi sərvətlərinin zənginləşdirilməsi yolunda səfərbər edəcəksiniz."

Bütün həyatınız boyu üzünüz gülsün gözümüzün nuru, ömrümüzün mənası, dünyanın bəzəyi və əbədi gözəlliyi olan analar!

Rasif TAHİROV

"FORMULA-1" YARIŞLARININ TƏŞKİLATÇISI BAKIDA KEÇİRİLƏCƏK AVROPA QRAN-PRİSİNƏ BİLETLƏRİN SATILDIĞI İLK MƏNTƏQƏNİN AÇILIŞINI EDİB

"Formula-1" yarışlarının təşkilatçısı "Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti (BŞH) "Park Bulvar" ticarət mərkəzində bu ilin yayında Bakıda keçiriləcək Avropa Qran-prisinə biletlərin satıldığı ilk məntəqənin açılışını edib.

BŞH-dən bildiriblər ki, ticarət mərkəzinin birinci mərtəbəsində əsas giriş tərəfdə yerləşən məntəqə yarışa bilet almaq istəyənlərə həftənin hər günü xidmət göstərəcək. Bununla yanaşı, yaxın günlərdə əlavə bir neçə bilet satışı məntəqəsinin də açılışı gözlənilir.

Əməliyyat şirkətinin kommersiya şöbəsinin rəhbəri Bülənt Özərdim bilet satışı məntəqələrinin fəaliyyətə başlaması ilə əlaqədar deyib: "Biz yerli "Formula-1" həvəskarlarına Avropa Qran-prisinə bilet almağı asanlaşdırmaq üçün bu məntəqəni açdıq. Yerli tamaşaçılar onlar üçün təklif olunan imtiyazlı biletləri "Bakı Şəhər Halqası" əməliyyat şirkətinin rəsmi vebsaytı vasitəsilə yanaşı, buradan da əldə edə bilərlər. Məhdud sayda bilet var. Biz hamını bilet almağa dəvət edirik".

Azərbaycan vətəndaşlarına və ölkəmizdə məskunlaşmış xarici ölkə vətəndaşlarına biletlər 20-40 faizlik endirimli qiymətlərlə təklif olunur. Bir şəxs imtiyazlı biletlərdən ən çoxu 4-nü ala bilər. İmtiyazlı biletlər şəxsiyyəti təsdiq edən sənəd əsasında satılır. Bilet alarkən izləyicilərə tribunaları və ya ayaqüstü yerləri seçmək imkanı verilir.

İyunun 17-si üçün satılan biletlər xaricində digərləri yarış həftəsonunu əhatə edən hər üç gün üçün keçərli olacaq. Bu biletlərə sahib olanlar "Formula-1" yarışı ilə yanaşı, keçirilən GP2 seriya yarışlarını izləmək və dənizkənarı bulvar ərazisində salınacaq F1 şəhərciyinə giriş imkanı əldə edəcəklər. Onlar bu şəhərcikdə təşkil olunan konsert və əyləncə tədbirlərində də pulsuz iştirak edəcəklər.

Jurnalistlər stolüstü tennis yarışında

5 mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə "İdman" qəzetinin Gənclər və İdman Nazirliyi və Azərbaycan Stolüstü Tennis Federasiyası ilə birgə kütləvi informasiya vasitələri və incəsənət ustaları arasında təşkil etdiyi stolüstü tennis yarışı keçirilib.

Martın 4-də «Şüa» İdman-sağlamlıq Kompleksində keçirilən yarışda 30 tennis həvəskarı qadın və kişi proqramları üzrə qüvvəsini sınayıb.

Turniri açıq elan edən «İdman» qəzetinin baş redaktoru Qabil Mehdiyev, Bədən Tərbiyəsi və İdman Gününün təsis edilməsi tarixindən, ölkədə bədən tərbiyəsi və idmana ayrılan dövlət qayğısından bəhs edərək, artıq ənənə halını almış bu turnirin idmanı təbliğ edənlərin əməyinə verilən qiymətin bir nümunəsi olduğunu qeyd etdi.

Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov çıxışında qeyd etdi ki, başlanğıcını ümummilli lider Heydər Əliyevin bədən tərbiyəsi və idmana qayğı və diqqətinin təzahürü olan bir tarixdən götürən bu əlamətdar gün, hər il ölkəmizdə geniş qeyd olunur. İldən-ilə uğurlarını möhkəmləndirən Azərbaycanın adının böyük idman ölkələri ilə eyni cərgədə çəkilməsinin qanunauyğunluq olduğunu və ötən il ölkəmizdə təşkil edilən ilk Avropa Oyunlarının da bunu bir daha təsdiq etdiyini qeyd etdi. O, xalqımızın ölkəmizdə keçiriləcək Şahmat Olimpiadasında, «Formula-1» Avropa qran-prisində, İslam Həmrəylik Oyunlarında bir təşkilatçı kimi yeni tarix yazacağına da əmin olduğunu bildirdi.

Azərbaycan Stolüstü Tennis Federasiyasının vitse-prezidenti Fazil Məmmədov qeyd etdi ki, artıq stolüstü tennisçilərimizin beynəlxalq uğurları artır. Ötən il müxtəlif mötəbər yarışlarda qazanılan medallar ənənəsi bu il də davam etdirilir. O, idmanda əldə olunan uğurların işıqlandırılmasında xüsusi rolu olan media nümayəndələrinə təşəkkürünü bildirərək, onlara həm bu yarışda, həm də çətin peşələrində uğurlar arzuladı.

Turnirin sponsorlarından biri olan Bon Appetit şirkətinin 5 mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə hazırladığı xüsusi tort kəsildikdən sonra, nazir müavini İsmayıl İsmayılov və federasiyanın vitse-prezidenti Fazil Məmmədov yarış iştirakçıları ilə rəmzi oyun keçirdilər.

Qaliblərə və yarışda fərqlənənlərə Gənclər və İdman Nazirliyinin müvafiq diplomları, «İdman» qəzeti və sponsorların xüsusi hədiyyələri təqdim edildi.

Turnirin baş sponsoru olan «Offissa Dizayn» şirkətinin nümayəndəsi Azər Xudiyev, yarışın qalibi Rəşad Qəmərşahoğluna və yükək təşkilatçılığa görə «İdman» qəzetinin baş redaktoru, Əməkdar jurnalist Qabil Mehdiyevə mükafat olaraq rəhbər kürsülərini təqdim etdi.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz
Gəmiçiliyi"
Qapalı Səhmdar
Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin
kompyuter mərkəzində
yığılmış, səhifələnmiş və
"Azərbaycan" nəşriyyatında
çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 35